# Səmərəli kənar nəzarət hansı qanunvericilik mühitini tələb edir?

Sabit Bağırov,
AHT Platformasının üzvü

# Təqdimatın içindəkiləri

1. INTOSAI – Ali Nəzarət İnstitutlarının beynəlxalq təşkilatı;
2. Lima Bəyannaməsi nə tövsiyə edir?
3. Azərbaycan Konstitusiyasında dəyişikliklərə ehtiyac varmı?
4. Yeni qanun layihəsinə nələr tövsiyə edilir?

# INTOSAI – Beynəlxalq Ali Audit İnstitutlarının Təşkilatı

INTOSAI Kubanın Ali Audit Təşkilatının (AAT) prezidenti Emilio Fernandes Kamusun təşəbbüsü ilə 1953 ildə təsis edilib.

Həmin vaxt Kubada 34 ölkənin AAT-ların iştirakı ilə 1-ci INTOSAI Kongresi keçirilmişdir.

Hazırda INTOSAI-nin 194 tam üzvü və 5 assosiativ üzvü var.

# INTOSAI xəritəsi



# INTOSAI Regional qurumları

| | | |
|---|---|---|
| OLACEFS | Organization of Latin American and Caribbean Supreme Audit Institutions | 1965 təsis edilib |
| AFROSAI | African Organization of Supreme Audit Institutions | 1976 təsis edilib |
| ARABOSAI | Arab Organization of Supreme Audit Institutions | 1976 təsis edilib |
| ASOSAI | Asian Organization of Supreme Audit Institutions | 1978 təsis edilib |
| PASAI | Pacific Association of Supreme Audit Institutions | 1987 təsis edilib |
| CAROSAI | Caribbean Organization of Supreme Audit Institutions | 1988 təsis edilib |
| EUROSAI | European Organization of Supreme Audit Institutions | 1990 təsis edilib |

# Ali Maliyyə Nəzatəri Təşkilatlarının müstəqilliyinə dair mühüm Bəyannamələr

1977 – Lima Bəyannaməsi, INTOSAI IX Konqressi;

2007 – Meksika Bəyannaməsi, INTOSAI XIX Konqressi;

2011 – Lissabon Bəyannaməsi, EUROSAİ VIII Konqresi;

2011 – BMT Baş Assambleyası, A/66/209 Qətnaməsi;

2014 – BMT Baş Assambleyası, A/RES/69/228

# Ali Nəzarət Prinsiplərinin Lima Bəyannaməsi

1977-ci ildə Ali Nəzarət Orqanlarının Beynəlxalq Təşkilatının (INTOSAI) IX-cu Konqresi tərəfindən Lima şəhərində qəbul edilib.

Lima Bəyannaməsinin əsas prinsipləri:

- Müstəqillik;
- Obyektivlik;
- Peşəkarlıq;
- Aşkarlıq

# Lima Bəyannaməsində müstəqillik prinsipləri

Lima Bəyannaməsində Ali Nəzarət Orqanlarının müstəqilliyinə dair 3 prinsip qeyd edilir:

1) Ali Audit orqanlarının müstəqilliyi (Maddə 5);
2) Ali Audit Orqanı üzvlərinin və əməkdaşlarının müstəqilliyi (Maddə 6);
3) Ali Audit Orqanının maliyyə müstəqilliyi (Maddə 7)

# Lima Bəyannaməsində müstəqillik prinsipləri

**Maddə 5. Ali Audit orqanlarının müstəqilliyi**

1. Ali Audit İnstitutu (AAİ) üzərilərinə qoyulan vəzifələrin qərəzsiz və effektiv icra edilməsi yalnız onların yoxladıqları təşkilatlardan müstəqilliyi və kənar təsirlərdən müdafiə olunduqları halda mümkündür.

2. Dövlət orqanları tam müstəqil ola bilməzlər, çünki dövlətin bir hissəsidirlər, bununla belə AAİ öz vəzifələrini icra etmək üçün funksional və təşkilati müstəqilliyə malik olmalıdırlar.

3. AAİ təsis edilməsi və müstəqilliyinin təminatı Konstitusiyada təsbit olunmalıdır, detalları isə müvafiq qanunda əks etdirilməlidir. AAİ müstəqilliyinə və səlahiyyətlərinə müdaxilələrdən qorunma Ali Məhkəmə tərəfindən təmin edilməlidir.

# Lima Bəyannaməsində müstəqillik prinsipləri

**Maddə 6. Ali Audit orqanı üzvləri və əməkdaşlarının müstəqilliyi.**

1. AAİ müstəqilliyi onun üzvlərinin müstəqilliyinə bağlıdır. AAİ maraqlarına uyğun qərar qəbul edən və üçüncü tərəf qarşısında məsuliyyət daşıyanlar üzv sayılır, yəni AAİ rəhbər kollegiya orqanı və ya onun rəhbərləri.

2. AAİ üzvlərinin müstəqilliyi Konstitusuya ilə də təmin edilməlidir. Beləki, onların geriyə çağırılma prosedurları da Konstitusiya tərəfindən müəyyən edilməli və onların müstəqilliyinə xələl gətirməməli. AAİ üzvlərinin təyini və vəzifələrindən azad edilməsi qaydası ölkənin konstitusion quruluşundan asılıdır.

3. Öz xidməti fəaliyyətlərində və karyera artımında AAİ əməkdaşları yoxladıqları təşkilatlardın asılı olmamalı nə də onların tərəfindən təsirlərə məruz qalmalıdırlar.

# Lima Bəyannaməsində müstəqillik prinsipləri

**Maddə 7. Ali Audit orqanının maliyyə müstəqilliyi.**

1. AAİ vəzifələrinin icrası maliyyə resursları ilə təmin edilməli.
2. AAİ tələb olunan maliyyə resurslarına dair milli büdcəyə dair qərar qəbul edən orqana bir başa müraciət emək hüququ olmalıdır.
3. AAİ ona ayrılan maliyyə resurslarından istədiyi kimi istifadə etmək hüququ olmalıdır

# Lima Bəyannaməsində Ali Nəzarət Orqanının ölkə Parlamenti ilə münasibətlərinə dair tövsiyələri

**Maddə 9. Parlamentlə münasibətlər**

AAİ  Konstitusiya və qanun ilə təmin edilən müstəqilliyi eyni zamanda onun yüksək səviyyədə təşəbbüslərini və avtonomluğunu müəyyən edir, hətda bu orqan Parlamentin nümayəndəsi olduğu və yoxlamaları Parlamentin göstərişləri ilə həyata keçirdiyi halda. AAİ Palamentlə münasibətləri hər bir ölkədəki şərait və ehtiyaclar nəzərə alınaraq Konstitusiyada müəyyən edilməlidir.

# Lima Bəyannaməsində Auditin qanuniliyinə, korrektliliyinə və icranın nəticələrinə dair tövsiyələr

**Maddə 4. Qanuniliyin auditi, korrektliyin auditi və icranın auditi**

1. AAİ ənənəvi vəzifəsi maliyyənin idarəedilməsinin və mühasibat hesablarının qanuniliyinin və korrektliliyinin yoxlanmasıdır.

2. ... heç də az vacib olmayan audit növü hakimiyyət orqanlarının hərəkətləri, effektivliyi, nəticəviliyi və iqtisadi fəaliyyətin auditidir. Bu zaman icranın auditinə yalnız maliyyə əməliyyatlarının spesifik aspektləri deyil, bunlarla yanaşı təşkilati və administrativ komponetlərlə bütövlükdə idarəetmə fəaliyyəti daxildir.

3. AAİ işinin məqsədləri – qanuniliyin, korrektliliyin, effektivliyin, nəticviliyin və iqtisadi səmərəliliyin qiymətləndirilməsi eyni ilə vacibdir....

# Azərbaycan Konstitusiyasında AAT-na dair qeydlər

Azərbaycan Respublikası Konstitusiyasında yalnız bu qeyd var:

*Maddə 92. **Azərbaycan Respublikası Milli Məclisinin işinin təşkili***

*Azərbaycan Respublikasının Milli Məclisi öz iş qaydasını müəyyən edir və Milli Məclisin müvafiq orqanlarını yaradır, o cümlədən öz sədrini və onun müavinlərini seçir, komitələr və komissiyalar təşkil edir, Hesablama Palatası yaradır.*

**Yalnız bu qeydin olması INTOSAI tövsiyləri baxımdan qətiyən yetərli deyil.**

# AHT Platformasının bəzi tövsiyələri

1. Azərbaycan Respublikası Konstitusiyasına növbəti dəyişikliklər paketinə (nə vaxt olacaqsa) Hesablama Palatasının müstəqillik məsələləri daxil edilməlidir (INTOSAI və BMT tövsiyələrinə əsasən);

2. Hesablama Palatası haqqında yeni qanun layihəsində subsidiyalara və özəlləşdirməyə dair məsələlər əlavə edilməlidir;

3. Hesablama Palatası haqqında yeni qanun layihəsində dövlət və kommersiya sirri, habelə məxfilik rejimin qorunması tədbirləri detallaşdırılmalıdır;

4. Hesablama Palatası üzvləri səlahiyyətlərinin daha 7 illik uzadılması mümkünlüyü və şərtləri daxil edilməlidir;

5. Hesablama Palatası üzvləri sayının artırılması məsələsinə yenidən baxılmalıdır;

# AHT Platformasının bəzi tövsiyələri

6. Hesablama Palatası üzvləri təyin edildikdə təcrübə tələbi 10 ilə yüksəldilməlidir;

7. Yaxın qohumluq anlayışı dəqiqləşdirilməlidir;

8. Siyasi partiyaya son 5 ildə üzv olanlar HP üzvlüyünə namizəd ola bilməzlər;

9. HP-nın iş planının təsdiqi proseduru daha aydın qeyd edilməlidir;

10. HP-nın iş planı hazırlanaraq vətəndaşların və vətəndaş cəmiyyəti qurumlarının təklifləri nəzərə alınmalıdır;

# TƏŞƏKKÜRLƏR